*Ötən ilə yekun vurulur*

# Sağlamlığın keşiyində

Bu günlərdə rayon mərkəzi xəstəxanasında ümumi yığıncaq keçirilmişdir. Yığıncaqda rayon mərkəzi xəstəxanasının baş həkimi Sabir Bayramov 2014-cü ildə görülmüş işlərə dair kollektiv qarşısında hesabat vermişdir.



Hesabat məruzəsində baş həkim qeyd etmişdir ki, ötən il rayon mərkəzi xəstəxanası və onun bölmələri üzrə əhaliyə göstərilən tibbi xidmətin yaxşılaşdırılması sahəsində xeyli iş görülmüşdür. Belə ki, əvvəlki illərdə olduğu kimi ötən ildə də rayonda əhalinin sağlamlığının qorunması sahəsində müstəqil dövlətimizin qarşıya qoyduğu vəzifələrin icrası əsasən təmin edilmişdir. Eyni zamanda istər Səhiyyə Nazirliyi, istər rayon icra hakimiyyəti tərəfindən verilən tapşırıqların, göstəriş və tövsiyələrin səhiyyə işçiləri tərəfindən tam yerinə yetirilməsinə böyük səy göstərilmişdir.

Hesabatda qeyd olunmuşdur ki, ötən il rayon mərkəzi xəstəxanasının tabeliyində olan tibb müəssisələrində 121 həkim və 328 orta tibb işçisi əhaliyə xidmət göstərmişdir. İl ərzində 34 nəfər işə qəbul edilmiş, 43 nəfər isə müəyyən səbəblərlə əlaqədar işdən azad olunmuşdur.

İl ərzində tibb işçilərinin bilik və təcrübəsinin, ixtisasının artırılması məqsədilə 15 həkim və 53 orta tibb işçisi kursdan keçmişdir.

2014-cü il ərzində stasionarda müalicə alan xəstələrin sayı 3002 nəfər olmuşdur. Onların 262 nəfəri cərrahiyyə əməliyyatı aparılmaqla müalicə almışdır. İl ərzində 1635 uşaq dünyaya gəlmiş, onlardan yalnız biri ev şəraitində, qalanı isə stasionarda doğulmuşdur. Ana ölümü baş verməmiş, perinatal ölümlərin sayı isə 6, bir yaşa qədər köpələr arasında isə 2 ölüm olmuşdur. Aparılan məqsədyönlü tədbirlər nəticəsində, ümumiyyətlə, uşaq ölümü göstəriciləri son illərdə çox yaxşılaşmışdır. Bu göstəricilər respublika göstəricilərindən dəfələrlə aşağıdır.

Ambulator olaraq müraciət edən xəstələrin sayı 250709 nəfər olmuşdur. 180 nəfər vərəmli xəstə dispanser qeydiyyatındadır. Onlardan ötən il 46 xəstə ilk dəfə aşkar olunub. Şəkərli diabet xəstələrin ümumi sayı 472, ilk dəfə aşkar olunanların sayı isə 133 nəfərdir. Bu xəstələrin hamısı mərkəzi xəstəxana tərəfindən pulsuz olaraq peraparatlarla təmin edilmişdir.

Sabir Bayramov talassemiyalı xəstələrin, ruhi xəstələrin, əlillərin müalicəsi ilə əlaqədar aparılan tədbirlər ilə bağlı geniş faktlar söylədi. Həmçinin məruzədə ölkə Prezidentinin tapşırığı əsasında bütün respublikada olduğu kimi rayonda da 18 yaşından yuxarı olan əhalinin dispanserizasiyasından, eyni zamanda uşaqların icbari dispanserizasiyasından, məktəblərdə, uşaq müəssisələrində aparılan tibbi tədbirlər barədə geniş məlumat verildi. Əhalinin müayinəsində bütün ixtisas həkimləri və laborator-instrumental kabinetlər iştirak etmişdir. Nəticədə 4145 nəfərə ambulator müalicə təyin edilmiş, 96 nəfər stasionar müalicəyə cəlb olunmuş, 134 nəfər isə Bakı şəhərindəki ixtisaslaşmış klinikalara göndərilmişdir. Rayon üzrə 22935 nəfər uşaq müayinə edilmiş, onlar arasında 2827 nəfərdə müxtəlif xəstəliklər aşkarlanmışdır. 2614 nəfər isə dispanser qeydiyyatına götürülmüşdür.

Hesabat məruzəsində digər bir sıra sahələr üzrə görülən işlərə də toxunulmuşdur. Buna misal olaraq təcili yardım şöbəsinin fəaliyyətini, uşaqlar arasında aparılan profilaktiki tədbirləri və sair tədbirləri misal göstərmək olar.

Ötən il tibbi şuranın 22 iclası keçirilmiş, iş planına uyğun olaraq iclaslarda xeyli məsələ müzakirə edilmiş, qəbul edilən tövsiyə və qərarların icrası təmin olunmuşdur.

2015-ci ildə qarşıda duran məsələlərlə bağlı iclasda geniş qərar qəbul olunmuşdur.

Sonda baş həkim Sabir Bayramov Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə həkimləri və bütün tibb işçilərini tibbi şura adından təbrik etmiş və əmin olduğunu bildirmişdir ki, səhiyyə işçiləri yeni ildə də əhalinin sağlamlığının qorunmasında öz fədakar əməklərini əsirgəməyəcəklər.

İl ərzində səmərəli əmək fəaliyyəti ilə fərqlənən 8 nəfər tibb işçisinə mərkəzi xəstəxana rəhbərliyinin fəxri fərmanı təqdim edilmişdir.

**Cavanşir MƏLİKOV,**
**rayon mərkəzi xəstəxanası baş həkiminin təşkilati-metodiki işlər üzrə müavini.**
**Foto S. Umuyevindir.**

# Şabalıd ağacının xəstəliyi

Rayonumuzun şimal hissələrində, şabalıd yetişən ərazilərdə ağaclarda yayılmış xəstəliklərlə bağlı tərəfimizdən mütəmadi olaraq araşdırma işləri aparılmışdır. Eyni zamanda Qəbələ şəhəri, Bum və Vəndam qəsəbə sakinləri tərəfindən Kənd Təsərrüfatı Nazirliyinə, Azərbaycan Elmi Tədqiqat Bitki Mühafizəsi İnstitutuna, Dövlət Fitosanitar Nəzarəti Xidmətinə yazılı olaraq müraciətlər edilmişdir. Müraciətlərə əsasən Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidmətinin, respublika Bitki Mühafizəsi İnstitutunun elmi işçiləri dəfələrlə ərazilərdə olmuşlar. Həmin ərazilərdə yetişdirilən şabalıd ağaclarından nümunələr götürülərək Mərkəzi Karantin Ekspertiza Laboratoriyasına göndərilmişdir.

Nümunələrin laboratoriya ekspertizasının nəticəsində məlum olmuşdur ki, Şəki—Zaqatala bölgəsində şabalıd ağaclarında müşahidə olunan xəstəlik şabalıdın qonur ləkəlik xəstəliyidir.

Nümunələrin ekspertizası zamanı şabalıd ağacının zədələnmiş hissələrində qovaq ağacovanı sürfələri, qırxayaq, qarın ayaqlılar aşkar edilmişdir.

Qeyd etmək lazımdır ki, müşahidə olunan həşəratlar əsasən tam zəifləmiş və qurumaqda olan bitkiləri yoluxdururlar.

Xəstə ağacların qurumuş hissələrində və qabıqların altında həmin ərazidə mövcud olan II dərəcəli zərərvericilərin sürfələri, pupları və ya ekskrimentləridir.

Şabalıd ağacları xəstəliyə tutulduqdan sonra qabıqlarda çatlar baş verir, həmin hissələrdə çürüntülər əmələ gəlir. Ətrafda olan zərərvericilərin çürüntülərdə qidalanması və qışlaması üçün əlverişli şərait yaranır. Bu səbəbdən müxtəlif həşəratların həmin hissələrdə müşahidə olunması mümkündür.

Mübarizə tədbiri olaraq yalnız aqrotexniki mübarizə tədbiri, payız mövsümündə xəstə budaqları və çatlamış gövdələri mexaniki yolla kəsərək bir yerə toplayıb yandırılması məsləhət görülür.

Əkin materialı kimi şabalıdın xəstəliyə davamlı növ, forma və hibridlərindən (yapon şabalıdı, cırtdan şabalıd və s.) istifadə edilməsi vacib tədbirlərdəndir.

**Kamran CALALOV,**
**Qəbələ Rayon Bitki Mühafizəsi Mərkəzinin rəisi.**

# Dəm qazından ehtiyatlı olun!!!




Son zamanlar qaz cihazlarının istismarı zamanı əhali arasında dəm qazından zəhərlənmə halları qeydə alınmaqdadır. Müəyyən olunub ki, bu hadisələrin əksəriyyəti vətəndaşların təhlükəsizlik qaydalarına riayət etməməsi səbəbindən baş verir.

Dəm qazından zəhərlənmə halı yanğın olduqda, sobanın qapağı erkən bağlandıqda, qarajda, qapalı məkanda avtomobil mühərriki işlədikdə, ağzı bağlı kabinədə uzun müddət qaldıqda baş verir. Mənzillərdə isə dəm qazından zəhərlənmə təhlükəsi əksər hallarda evi qızdırıcı cihazlarla qızdırarkən və ya hamam otağında baş verir. Kimyəvi adı karbon monooksid olan dəm qazı yanacaq məhsullarının natamam yanması nəticəsində əmələ gəlir. Bu qaz iysiz və rəngsiz olduğundan hiss edilmir. Qapalı şəraitdə daha da təhlükəli olur. Karbon monooksid tənəffüs zamanı ağciyərlərdən qana daxil olur. Adətən oksigenlə birləşməli olan hemoqlobin bu dəfə karbon monooksidlə birləşməyə başlayır və karboksihemoqlobin yaradır və qan artıq oksigeni daşıya bilmir. Bu proses oksigenlə birləşmədən 300 dəfə daha intensiv baş verir. İnsan oksigen çatışmazlığından boğulmağa başlayır. İnsan ürəyi bir vurmaya 200 ml-dən çox qan sərf etdiyindən ağciyərlərə düşən dəm qazı sayılan saniyələr ərzində bütün orqanizm boyu yayılır. Dəm qazından zəhərlənmə zamanı bu simptomlar özünü biruzə verir: yaşaran gözlər, başağrısı, başgicəllənmə müşahidə olunur. Getdikcə zəiflik, ürəkbulanması, quru öskürək, hafizənin keyləşməsi, eşitmə və görmə hallyusinasiyaları başlayır. Qıcolma tutmaları və nəhayət, tənəffüs mərkəzinin iflici nəticəsində ölüm baş verir. Mənzildə dəm qazı təhlükəsinin qarşısını almaq üçün bir sıra qaydalara riayət edilməlidir. Yadda saxlayın ki, evinizdə qeyri-standart, yeni kustar üsulla hazırlanmış cihazların quraşdırılması və istifadəsi təhlükəlidir.

Mənzildə qızdırıcıların havaçəkmə borularının düzgün işləməsinə nəzarət edilməlidir.

Unutmayın ki, qızdırıcı soba ilə mənzilin ölçüsü uyğun gəlməlidir. Misal üçün, mətbəx həddindən artıq kiçikdirsə və orada zəruri olan ventilyasiya sistemi quraşdırılmayıbsa, böyük ölçüdə qaz plitəsi qoymaq olmaz.

Eyni qayda hamam otağına da aiddir. Kiçik hamam otağına böyük ölçülü suqızdırıcının qoyulması təhlükəlidir. Cihazın borusunun çıxış yeri olmalıdır. Zəruri ventilyasiya sistemi yoxdursa, mütləq hamam otağının qapısının aşağı hissəsində hava oynaması üçün dəliklər açılmalı və ya qapalı mühitdə qaz yandırılarkən nəfəslikər açıq olmalıdır.

Otaqlarda quraşdırılmış qızdırıcı sobanın fəaliyyətinə təhlükəsiz fasilə verilməlidir. Bu zaman otaqda havanın dəyişdirilməsi üçün pəncərələr açılmalıdır. Unutmayın ki, mənzil mütəmadi havalandırıldıqda dəm qazından zəhərlənmə riski azalır.

Evə soba alarkən onun zəmanət barədə sertifikatı və texniki pasportunun olub-olmamasına diqqət yetirin. Mənzildə soba və suqızdırıcılarını quraşdırarkən mütləq yerli qaz idarəsinin mütəxəssisləri ilə məsləhətləşin. Bu sahədə naşı olan insanların xidmətindən istifadə etməyin. Tüstü borusu olmayan sobaları almayın. Boru olmadıqda və otaq mütəmadi havalandırılmadıqda orada mütləq dəm qazı yaranır. Dəm qazı ilə zəhərlənən insan əksər hallarda özü-özünə kömək edə bilmir. Lakin təcili tibbi yardım gələnədək ətrafdakılar ona ilk yardımı göstərə bilərlər. Zərərçəkəni dərhal təmiz havaya çıxartmaq, onu kürəyi üstə uzatmaq və yaxalığını açmaq lazımdır. İmkan olduqda oksigen yastıqlarından istifadə edilir. Alın və sinəyə soyuq kompress qoyun. Əgər zərərçəkmişin huşu özündədirsə, o zaman ona isti çay verin. Dəm qazından yüngül zəhərlənmə olduqda, yəni zərərçəkmiş bu simptomları vaxtında hiss edib məkanı tərk etdikdə, o zaman sadəcə təmiz hava ilə tənəffüs etmək yetərlidir. Zərərçəkmiş huşunu itiribsə, ona naşatır spirti ilə isladılmış pambıq parçasını iylətmək lazımdır. Naşatır spirti olmadıqda onu adi sirkəylə də əvəz etmək olar.

Zərərçəkmiş nəfəs almırsa və ya tənəffüsü zəifdirsə, ona süni nəfəs vermək lazımdır. Zərurət olduqda ürək massajı edilməlidir. Zərərçəkmişə yardım göstərilməsi üçün təcili tibbi yardım briqadası çağırılmalıdır. Dəm qazından zəhərlənmiş insan özünü yaxşı hiss etsə belə, ən azı 24 saat həkim nəzarəti altında qalmalıdır.

Unutmayın, hər hansı bir fövqəladə hadisə baş verdikdə "112" qaynar xəttinə müraciət edin!

**FHN ŞİMAL-QƏRB REGİONAL MƏRKƏZİNİN İCTİMAİYYƏTLƏ ƏLAQƏ VƏ TƏBLİĞAT SEKTORU.**